Türküstan

# Vaqif Bayatlı Odər – 75

***Əziz oxucular, bu il tanınmış şair, Əməkdar incəsənət xadimi Vaqif Bayatlı Odərin yubiley ilidir, bu günlərdə 75 yaşı tamam oldu. Biz də "Art" səhifəsi olaraq çağdaş poeziyamızın dəyərli ismini bu münasibətlə təbrik edir, yaradıcılıq nümunələrindən seçmələri və eləcə də haqqında qələmə alınan yazılardan, şeirlərdən bir neçəsini sizlərə təqdim edirik.***

## Xudanın dərdiyi gül

Ot kimidi adamlar –
hərəsi bir tərəfində bitir
bu torpaq ömrümüzün.
Yaşıllaşanda birdən yaşıllaşıb,
saralanda birdən saralırlar otlar.
Necə ki, sevəndə birdən sevib,
unudanda birdən unudur adamlar.
Sanki sözü bir yerə qoyub otlar –
birgə yaşıllaşıb, birgə solurlar,
sevənlər sevənlərə baxıb sevirlər,
unudanlar unudanlara baxıb unudurlar.
Bu ot sayaq adamların içində
Gülü gül kimi yox,
alaq kimi üzən çox,
Nəfsinə ac adamlar
Allaha çatanda tox.

Gül olub boy atmaq olmur,
Gülə gəlmir adamlar.
Gülü sevənlər bəs niyə
tikanından qorxurlar?
Şəhidlər gülləyə yox,
gülə tuş gələn adamlardı.
Ona görə əlləri açıq,
sinələri qabağadı.
Gülün tikanı nədir ki,
Allahın şux çimdiyidi.
Sizi bihuş edən çiçək
Yaradanın dərdiyidi.

## Qanadlı Vaqif Bayatlı Odərin qanadlı qanadı Tamam Bayatlıya dedikləri

Sən mənim fərqimə varanda,
mən sənin fərqinə varanda
yenidən doğuluruq biz.
Tanrının baxdığı yerdən
dünyaya boylanırıq biz.

Biz o yerdən baxdıqca,
biz o göydə qaldıqca,
səslər sığmır səsimizə,
sözlər sığmır sözümüzə,
ürək sığmır sinəmizə,
dünya sığmır gözümüzə.

Elə həmin an, həmin dəm,
Bizə hamıdan yaxın olan
Tanrı "yüyürüb" köməyə
səsə bir az meydan açır,
sözə bir az meydan açır,
tez böyüdür köksümüzü,
böyük açır gözümüzü.

Böyüyür dünyanın yeri
çatır bütün sevənlərçün.
Şükür, bizsə gen dünyada
hər dəfə – dönə-dönə
bir də varrıq fərqimizə.

Biz vardıqca fərqimizə,
Allah biz dayanan yerdən
baxır bizim oğlumuza.



**Fərid Hüseyn**

***

***(Vaqif Səmədoğlu və Vaqif Bayatlı Odərə)***

Yarpaq kimi,
Budaq kimi şeirlər var.
Bir də varg
Ağac kimi şeir!

Buğda kimi,
Sünbül kimi şeirlər var.
Bir də var
Çörək kimi şeir!

Köpək kimi,
Pişik kimi şeirlər var.
Bir də var
Kişi kimi şeir!



**Rauf Qaraişıq**

## Vaqif, sənə deyiləsi sözlərimə yağış yağır...

***Payızdı, Vaqif! Sözlərimə yağış yağır. Üşüyür sözlərim. Lap iyirmi üç il əvvəlki kimi.***

***Bizi iyirmi üç il bundan əvvəl elə belə bir payız günündə hər ikimizin sevimlisi Əbülfəz Elçibəy öz toy günündə tanış elədi. Mən 19 yaşında bir dəli- dolu uşaq, sən 'bütün sevdalan unutduracaq" 30 yaşında qosqoca bir şair...***

...və işə bax, 20 ildən sonra sənin 50 yaşında üçümüz bir masada... Yenə əvvəlki doğmalıq, yenə əvvəlki sevda. Sən, sənin çap elədiyin ilk şeirim qədər doğmasan mənə.

Sən- başdaşının çiçəkdən, iblisin mələkdən gözəl göründüyü, ağacların yarpaqlarından əvvəl öldüyü, mələklərin tanrıdan daha çox sevildiyi bir məmləkətin zaman ölçüsündən yuxarıda dayanan şairi...

Sən – getdiyin yolun sonunda özü dayanan bir adam. Şairlər ağacın, çiçəyin, otun dərdini çəkər, sən ağacın budaqlarının, çiçəyin ləçəklərinin, otun ətrinin; yəni tam və mükəmməl!

Sən – içindəki iman evinin minarəsi kədərdən ucalan adam.

Sən- qanadları insan əzablarının cəhənnəm yükündən titrəyə əzabkeş mələk.

Sən – günü keçmiş, zamanı aşmış bir şair.

Yaş sənin şeirlərinin zaman ölçüsüzlüyündə nədir ki?

Əzizim, Vaqif!

Kələkidə 42 il bundan əvvəlki bir payız günüydü... 42 il əvvəlki kimi sənə deyiləsi sözlərimə yağış yağır...



**Hörmətlə,**
**Sənə sevgisi sözə sevgisi qədər böyük olan Rüstəm Behrudi**

## Zamanı ovcunda böyüdən şair...

***Onun poeziyası həmişə mənə müharibədən əlil qayıtmış musiqi notlarını xatırladır.***

***Ona görə də poetikası obraz baxımından bütöv, göy üzü baxımdan natamamdır.***

***Söhbət bu günlərdə 75 yaşını qeyd edən, kölgəsini tanrının skamyasında unutduğu Vaqif Bayatlı Odərdən gedir.***

Onun yumru poeziyasında bütün müstəvilər göz yaşı ilə paralel şəkildə kəsişir. Onun şeirlərində katetlər hipetnuzla kəsişmir, öpüşür.

Məhz ona görə də şairin şeirlərində bütün verilmiş nöqtələrdən ilğımlı bir son bahar illüziyası keçir.

O, zamanı ovcunda böyüdən şairdir. Vaqif Bayatlı üfüqün bütün nöqtələrində poetik düşüncəsi ilə savaş aparan şairdir.

Ağaclarla çiçəklər arasındakı poetik boyut onun keşişməyən düz xəttləridir.

Şeirləri də bir-birindən tez yorulur. Boya və nəqş ardıcıllığını özü pozan şairdir Bayatlı.

Çox vaxt şeirlərindəki bütün sevgi tabloları özü-özünə ölüm hökmü oxuyur.

Bəzən düşünürəm ki, onun misraları özündən əvvəl dünyaya gələrək bir şam işığının altında Vaqif bəyi gözləyib. Çünki hər misranın bətnində bir körpə baxışı uyuyur.

Onun poetikası əslində bütün tabloları baxışları ilə işğal edib. Hətta yazmadığı şeirlərin də altına son nəfəsini imza olaraq atıb.

Vaqif Bayatlı Azərbaycan poeziyasının yol ayrıcıdır, işıq gələn tərəfidir.

Amma elə it hürən tərəfin qaranlıqlarını da öz işıqları və müsbət enerjisi ilə işğal etməyi bacarıb.

Vaqif bəyi oxuduqca düşünürsən ki, bu yorğun misralarda göy üzü qanadlarından vurulur. Tanrısal tənhalıqlar isə yalnızlığın başdaşını and yerinə çevirərək ovcunda gizlədir.

Şairin poeziyasında həmişə "piyada" misralar "şah" və "vəzir"i mat qoya bilib. Eyni zamanda, həmin "piyada"lar "şah"a yox, şahlığa gedən yol olub.

Vaqif bəyin şeiriyyatında gənclikdən üzübəri dəyişməyən bir düz xətt var. Həmin düz xəttin adı əliçəlikli payız və ya yarımçıq olduğunu unudan qeyri-səlis poeziyadır. Şairin şeirlərinişifrələyən, ən əsası gözəlləşdirən də elə budur.

Onun şeirlərindəki bütün misralar payızın intihar edən əlləri, ayaqlarıdır.

***Onun şeirləri Tanrı soyundan gələn və Tanrıya istinadla yazılan bütün unudulanların alın yazılarıdır.***

***Doğum gününüz qutlu olsun, şeirlərini ünvansız dualarından asan adam!***




**Tural Turan**